

## Sənin hansı vəzifələrin var?

- Yaşadığın, təhsil aldığın və olduğun hər yerdə davranış qaydalarına əməl etmək,
- Digər şəxslərin hüquqlarına hörmət etmək,
- Azərbaycan Respublikasının dövlət rəmzlərinə, ümumbəşəri dəyərlərə hörmət etmək,
- Tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumaq SƏNİN BORCUNDUR!

## Ombudsmana necə müraciət etmək olar?



Uşaqların hüquqlarının pozulması ilə bağlı Ombudsmanın

**916 Çağrı Mərkəzinə**

zəng edə bilərsən

## Ombudsmanın Regional Mərkəzləri

**Qərb Regional Mərkəzi:**
AZ2000, Gəncə şəhəri, Heydər Əliyev meydanı, inzibati bina, 1-ci mərtəbə
tel: (022) 266 05 65

**Şimal-Qərb Regional Mərkəzi:**
AZ5500, Şəki şəhəri, Şəki "ASAN xidmət" mərkəzi, Zərifə Əliyeva küçəsi 104
tel: (024) 244 01 33

**Şimal Regional Mərkəzi:**
AZ4000, Quba şəhəri, Yusif Qasımov küçəsi 68
tel: (023) 335 15 99

**Cənub Regional Mərkəzi:**
AZ4400, Masallı şəhəri, Heydər Əliyev prospekti, Masallı "ASAN həyat" kompleksi
tel: (025) 215 19 16

## Əlaqə Vasitələri

- www.ombudsman.az
- ombudsman_azerbaijan
- ombudsmanazerbaijan
- ombudsmanazerbaijan
- ombudsman_az
- ombudsman@ombudsman.az
- apparat@ombudsman.az
- AZ1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 80, Hökumət Evi, II Ala qapı

Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

# UŞAQLARIN HÜQUQLARINI





## Əziz uşaqlar,

Hər biriniz bərabər hüquqlara maliksiniz. Siz sağlam, təhlükəsiz, zorakılıqdan uzaq, bərabər imkanlara əsaslanan mühitdə yaşamalı, qayğı ilə əhatə olunmalısınız. Ailədə, təhsil aldığınız müəssisədə və olduğunuz hər bir yerdə sizinlə yaxşı rəftar olunmalı, şərəf və ləyaqətinizə, fikirlərinizə hörmətlə yanaşılmalıdır. Sizin hüquqlarınızın müdafiəsi, layiqli həyat səviyyənizin, hərtərəfli inkişafınızın təmin edilməsi üzərimizə düşən əsas vəzifələrdəndir.

Ombudsmana müraciət etməklə hər zaman hüquqlarınızın müdafiəsinin təmin edilməsinə nail ola bilərsiniz.

Hüquqlarınızı bilin və uşaqların müdafiəsinə dəstək göstərin.

Sizin səsiniz uşaqların hüquqlarının daha yaxşı təmin olunmasına xidmət edir.

**Səbinə Əliyeva**
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

## Ombudsman kimdir?

- İnsanların hüquq və azadlıqlarını qoruyan vəzifəli şəxsdir.

## Ombudsman uşaqların hüquqlarını necə müdafiə edir?

- Hüquqları pozulan uşaqlarla bağlı şikayətlərə baxır, araşdırır və bərpası üçün tədbirlər görür.
- Uşaqların hüquqları ilə bağlı maarifləndirmə işləri aparır.
- Uşaq müəssisələrində şərait və xidmətləri yoxlamaq, uşaqlarla bağlı vəziyyəti öyrənmək üçün monitorinqlər keçirir.
- Uşaqlarla bağlı qanunları və sənədləri təhlil edir.
- Uşaqların hüquqlarının qorunması üçün dövlət orqanlarına və digər qurumlara təkliflər verir.



## Sənin Hansı Hüquqların Var?



Yaşamaq, sağlam və təhlükəsiz böyümək **HÜQUQUN VAR!**



Cinsinə, irqinə, dilinə, ailə vəziyyətinə, sağlamlığına və başqa əlamətlərinə görə ayrı-seçkilikdən müdafiə **HÜQUQUN VAR!**




Zorakılıqdan müdafiə olunmaq **HÜQUQUN VAR!**



Təhsil almaq, zərərli olmayan məlumatları əldə etmək və öz bacarıqlarını inkişaf etdirmək **HÜQUQUN VAR!**



Maraq göstərdiyin məsələlərdə fikrini bildirmək və dinlənilmək **HÜQUQUN VAR!**



Azadlıq, sosial təminat, istirahət və zərərli təsirlərdən müdafiə **HÜQUQUN VAR!**



Şəxsi həyatının, sirlərinin və fərdi məlumatlarının qorunması **HÜQUQUN VAR!**



Hər hansı problemin olarsa, valideynlərindən, müəllimlərindən, böyüklərdən və ya müvafiq qurumlardan dəstək almaq **HÜQUQUN VAR!**